**Azərbaycan Gənclər və İdman Nazirliyi**

**Azərbaycan İdman Akademiyası**

**Bədən tərbiyəsi və idmanın nəzəriyyəsi və metodikası kafedrası**

**2023-2027-ci illər üzrə elmi-tədqiqat işlərinin**

# MÖVZU XƏRİTƏSİ

**Bakı 2023**

**Azərbaycan İdman Akademiyası**

**Bədən tərbiyəsi və idmanın nəzəriyyəsi və metodikası kafedrasının 2023-2027-ci illər üzrə elmi-tədqiqat işlərinin**

# MÖVZU XƏRİTƏSİ

**Mövzu:** Ümumtəhsil məktəblərində şagirdlərin fiziki hazırlığının tədqiqi

**Aktuallığı:** Ümumtəhsil məktəblərində təhsil böyüyən nəslin kifayət qədər davamlı yaş dövürlərini əhatə edir. Bu dövr eyni zamanda şagirdlərin funksional, fiziki, əqli, psixoloji inkişaf və formalaşma müddətlərini özündə ehtiva edir. Böyüyən orqanizmin funksional sistemlərinin normal inkişafının təmin olunması aspektlərindən ən əhəmiyyətlisi fiziki hazırlıqdır. Bu hazırlığın həyata keçirilməsi isə ümumtəhsil məktəblərində fiziki tərbiyə fənninin tədrisi zamanı tətbiq edilən fiziki yükün adekvatlığından, təyinatından bilavasitə asılıdır. Ümumtəshil məktəblərində ümumorta və tamorta təhsil səviyyələrində şagirdlərin fiziki hazırlığının tədqiqi bu sahədə mövcud problemlərin aşkarlanması və aradan qaldırılması üçün əsas yaratdığından aktual tədqiqat obyektidir.

**Tədqiqatın məqsədi:** Ümumtəhsil məktəblərində şagirdlərin fiziki hazırlığının tədqiq olunmasının əsas məqsədi müxtəlif yaş qruplarına aid olan şagirdlərdə fiziki hazırlığın komponentləri üzrə göstəricilərin müəyyən edilməsi və bu əsasda onların yaxşılaşdırılması üçün təcrübi tövsiyələrin hazırlanmasıdır.

**Tədqiqatın vəzifələri:** Ümumtəhsil məktəblərində şagirdlərin fiziki hazırlığının tədqiqi mövzusunda elmi-tədqiqat işi aşağıdakı vəzifələrin həllini qarşıya qoyur:

1. Ümumorta və tamorta təhsil səviyyələrində şagirdlərin fiziki inkişaf və funksional göstəricilərinin ölçülməsi;
2. Ümumorta və tamorta təhsil səviyyələrində şagirdlərin fiziki hazırlıq komponentləri (hərəki qabiliyyətlər) üzrə göstəricilərin müəyyən edilməsi;
3. Fiziki tərbiyə dərslərinin strukturu, məzmunu və fiziki yükün adekvatlıq dərəcəsinin müəyyənləşdirilməsi;

4. Ümumtəhsil məktəblərində fiziki tərbiyə dərslərinin keyfiyyət göstəricilərinin artırılması üçün tövsiyələrin hazırlanması və onların tətbiqi effektliyinin müəyyənləşdirilməsi

**Tədqiqatın metodları:** Ümumtəhsil məktəblərində şagirdlərin fiziki hazırlığının tədqiqi mövzusunda tədqiqat işinin aparılması zamanı aşağıdakı metodlardan istifadə olunması planlaşdırılır:

1. Tədqiqat problemi üzrə elmi-metodik mənbələrin təhlili, öyrənilməsi və sistemləşdirilməsi;
2. Pedaqoji müşahidə ;
3. Pedaqoji sorğular;
4. Fiziki tərbiyə dərslərinin xronometrajlaşdırılması;
5. Antropometrik və funksional göstəricilərin ölçülməsi;
6. Hərəki qabiliyyətlərin inkişafı səviyyəsinin ölçülməsi;
7. Tədqiqat göstəricilərinin riyazi statistikası və müqayisəli təhlili;

**Tədqiqat obyekti:** Ümumtəhsil məktəblərində ümumorta və tamorta təhsil səviyyəsində təhsil alan şagird kontingentidir.

**Tədqiqatın perdmenti:** Ümumtəhsil məktəblərində şagirdlərin fiziki hazırlıq, fiziki, funksional inkişaf üzrə göstəriciləridir.

**Tədqiqatın fərziyyəsi:** Ehtimal olunur ki, ümumtəhsil məktəblərində şagirdlərin fiziki hazırlıq göstəricilərinin müəyyənləşdirilməsi, fiziki tərbiyə dərslərinin xronometrajlaşdırılması müvafiq hərəki qabiliyyət üzrə daha adekvat və təyinatlı fiziki yük seçməyə, tətbiq etməyə və bununlada fiziki tərbiyə dərslərinin səmərəliliyinin artırılmasına imkan verə bilər.

**Tədqiqat mərhələləri:**

**2023-cü il**

Ümumtəhsil məktəblərində şagirdlərin fiziki hazırlığına dair elmi-metodiki və internet resurslarında olan mənbələrin təhlili və sistemləşdirilməsi;

**İcraçılar:** Ramazanov Ə.X.

Əhmədov Q.Z.

Bayramova Z.C

Soltanov O.E.

Qədimov R.F.

Əkbərov R.A.

**2024-cü il** ümumtəhsil məktəblərində fiziki tərbiyə dərslərinə müxtəlif təyinatlı müşahidələrin təşkili və aparılması;

**İcraçılar:** Ramazanov Ə.X.

Əhmədov Q.Z.

Bayramova Z.C.

Soltanov O.E.

Alıyev M.S.

Əliyev E.A.

**2025-ci il** ümumtəhsil məktəbi şagirdlərinin hərəki qabiliyyətlər üzrə göstəricilərinin müəyyən edilməsi. Fiziki tərbiyə dərslərinin xronametrajlaşdırlması;

**İcraçılar:** Soltanov O.E.

Bayramova Z.C.

Əhmədov Q.Z.

Qocayev X.R.

Hüseynov A.S.

**2026-cı il** ümumtəhsil məktəblərində şagirdlərin fiziki hazırlığının tədqiqi mövzusunda tədqiqat nəticələrinin emalı, müqayisəli təhlili və sistemləşdirilməsi. Tövsiyələrin hazırlanması;

**İcraçılar:** Ramazanov Ə.X.

Soltanov O.E.

Bayramova Z.C.

Əhmədov Q.Z.

Qocayev X.R.

**2027-ci il** ümumtəhsil məktəblərində şagirdlərin fiziki hazırlığının tədqiqi mövzusunda tədqiqat nəticələrinin təcrübədə tətbiqi və onun səmərəliliyinin müəyyən edilməsi;

**İcraçılar:** Ramazanov Ə.X.

Soltanov O.E.

Bayramova Z.C.

Əhmədov Q.Z.

Qocayev X.R.

Tədqiqat mövzusu Bədən tərbiyəsi və idmanın nəzəriyyəsi və metodikası kafedrasının 08.09.2023-cü il tarixli, 1 saylı ümumi iclasında müzakirə edilərək qəbul edilmişdir.

**Sədr:** **Ramazanov Əli Ağa**

**Katib:** **Əliyeva Zaidə**